

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 7 (23.894)

13 yanvar 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verib. Dövlətimizin başçısı müsahibədə jurnalistlərin Azərbaycanda 2021-ci ildə iqtisadi, sosial sahələrdə görülən işlərə, Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərə, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinə, ölkəmizin xarici siyasətinə və digər məsələlərə dair suallarını cavablandırıb.

Dövlətimizin başçısı müsahibəsində qeyd edib ki, ötən ilin göstəricilərinə görə iqtisadi artım 5 faizdən çoxdur. Bu, çox gözəl göstəricidir, xüsusilə müharibədən çıxmış ölkə üçün. Ən sevindirici hal odur ki, qeyri-neft iqtisadiyyatımız 7,2 faiz artıb. Bu onu göstərir ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı bizim bütün planlarımız həyatda öz əksini tapır. Sənaye istehsalına gəldikdə, həm ümumi sənaye istehsalımız 5 faizdən çox artıb, həm də qeyri-neft sənayemiz 20 faizə yaxın artıb. Hesab edirəm ki, bu, dünya miqyasında, bəlkə də, ən yüksək göstəricidir. Bildirilib ki, bu ilin büdcəsi, – bu da keçən ildə əldə edilmiş nailiyyətlərin hesabınadır, – tarixdə ən böyük büdcə olacaq. Büdcə xərcləri, təxminən, 30 milyard manata çatacaq.

Prezident İlham Əliyev müsahibə zamanı Ermənistan tərəfindən davamlı təxribatlar, indiki hakimiyyətin hərəkətlərində mütərəddidlik, qeyri-davamlı proseslərin baş verməsi, sülh sazişi və ölkələrin bir-birinin ərazilərini tanıma məsələləri ilə bağlı da fikirlərini bölüşüb.

# Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr müəyyənləşdirilib, ötən ilin yekunları müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr və 2021-ci il ərzində görülmüş işlər müzakirə olunub. Kollegiya iclasında komitə sədri, gömrük xidməti general-leytenantı Söhət Həbibbəyli qeyd edib ki, hesabat dövrü ərzində gömrük orqanları tərəfindən iqtisadi təhlükəsizliyin və daxili bazarın qorunması, hüquq-mühafizə fəaliyyətinin yerinə yetirilməsi, əhalinin keyfiyyətli idxal məhsulları ilə təmin edilməsi, ixracın stimullaşdırılması və gömrük xidmətinin keyfiyyətinin artırılması istiqamətində fəaliyyət davam etdirilib.

Vurğulanıb ki, hərtərəfli dövlət qayğısı ilə əhatə olunan gömrük xidmətinin modernləşməsi, iş şəraitinin daha da yaxşılaşdırılması diqqətdə saxlanılıb. Hesabat dövründə iş prosesinin avtomatlaşdırılması və idarəetmənin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilib. Gömrük rəsmiləşməsini aparacaq əməkdaşın sistem tərəfindən avtomatik seçilməsi, yeni proqram təminatı hazırlanmaqla gömrük bəyannaməsini təqdim edəcək gömrük təmsilçilərinin bölgüsünün elektron növbə prinsipi əsasında aparılması təmin olunub. Malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun kodlarının mərkəzləşdirilmiş bazası formalaşdırılıb, ölkəmizdə ilk dəfə olaraq karqo şirkətləri ilə gömrük orqanları arasında elektron məlumat mübadiləsinin həyata keçirilməsi təmin olunub.

Komitə sədri bildirib ki, muxtar respublika gömrük orqanları 2021-ci il ərzində 31 milyon 404 min manat vəsait toplayaraq büdcə öhdəliyini 107,7 faiz yerinə yetirib. Toplanmış gömrük ödənişləri Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin 22,3 faizini təşkil edib.

Vurğulanıb ki, əməliyyat-axtarış fəaliyyətinin genişləndirilməsi, texniki nəzarət vasitələrindən səmərəli istifadə, kinoloji xidmətin keyfiyyətinin yüksəldilməsi, əməkdaşların bilik və bacarıqlarının artırılması nəticəsində gömrük sahəsində hüquqpozma hallarına qarşı mübarizə gücləndirilib. Gömrük orqanları tərəfindən 2021-ci ildə 113 inzibati, 4 cinayət xarakterli fakt aşkarlanıb, ümumilikdə, 566 kiloqram 530 qram narkotik vasitənin muxtar respublika ərazisindən tranzit keçirilməsinin qarşısı alınıb. Muxtar respublikamızda qəbul olunmuş Dövlət proqramlarından, Ali Məclisin sessiyalarından, keçirilən müşavirələrdən irəli gələn vəzifələrin icrası istiqamətində gömrük orqanları tərəfindən işlər davam etdirilib. Daxili bazarın xarici təsirlərdən qorunması, yerli istehsalın, o cümlədən ailə təsərrüfatlarının dəstəklənməsi istiqamətində əlavə tədbirlər görülüb, muxtar respublikaya gətirilən malların keyfiyyətinə ciddi nəzarət edilib. "İxrac ili" olan 2021-ci ildə ixrac mallarının gömrük rəsmiləşməsinin asan və sürətli formada təmin edilməsi, "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edən ixracatçıların sayının artırılması ilə muxtar respublikanın ixrac potensialının gücləndirilməsinə dəstək verilib.

Kollegiya iclasında çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasını giriş sözü ilə komitənin sədri Ramilə Seyidova açıb. Bildirib ki, komitə tərəfindən gənclər və digər yaş qruplarından olan şəxslər arasında ailə institutunun təbliği məqsədilə "Ailə dəyərlərimiz film və fotolarda" mövzusunda VI muxtar respublika yaradıcılıq müsabiqəsi və "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda VIII muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqələri keçirilib.

Qadınlarla bağlı icra olunan sosial layihələr barəsində məlumat verən Ramilə Seyidova bildirib ki, hesabat dövrü ərzində Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin maliyyələşdirdiyi "İcma quruculuğu təşəbbüsləri proqramı" çərçivəsində "Naxçıvan Muxtar Respublikasında qadınların iqtisadi səlahiyyətlərinin artırılması" layihəsinin icrası həyata keçirilib. Layihə çərçivəsində maliyyə savadlılığı üzrə "Gələcəyini planlaşdır!" və biznes planlaşdırılması üzrə "Sahibkar ol!" adı altında təlimlər təşkil olunub. Təlimlərdə sağlamlıq imkanları məhdud və sosial qayğıya ehtiyacı olan 28 qadın iştirak edib. Təlimlərin sonunda ən uğurlu biznes-plan hazırlayıb təqdim edən 26 nəfərə sərmayə kapitalı verilib.

Qeyd olunub ki, muxtar respublikanın rayonlarında xüsusi qayğıya ehtiyacı olan ailənin üzvləri, fiziki imkanları məhdud qadınlar və müvafiq rayonların aid dərnək rəhbərləri üçün il ərzində 11 dəfə müxtəlif sahələr üzrə təlimlər keçirilib.

Komitə sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun 2021-ci il üçün İş Planına uyğun olaraq məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış keçirilib. Sərgi-satışda 514 müəllifin 7426 əl işi sərgilənib.

Uşaqlarla bağlı həyata keçirilən tədbirlərdən danışan komitə sədri diqqətə çatdırıb ki, "Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 iyul tarixli Sərəncamı ilə təhsil və idman sahələri üzrə 2 uşağın adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılıb, onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb. Bununla da müvafiq kitabda uşaqların sayı 15 nəfər olub.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 30 uşaq müəssisəsində və uçota alınmış valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 25 uşağın, tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud 770 uşağın təhsil aldığı 114 uşaq müəssisəsində, sağlamlıq imkanları məhdud 119 uşağın evində monitorinqlər aparılıb.

Məruzə ətrafında müzakirələr olub.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində 2021-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı keçirilən kollegiya iclasında xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev bildirib ki, 2021-ci il ərzində miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozan 2 əcnəbi öz ərizəsi əsasında könüllü olaraq xidmətin Qanunsuz miqrantların saxlanılması mərkəzində saxlanılıb.

Diqqətə çatdırılıb ki, əcnəbilərin olduğu yer üzrə qeydiyyatı, müvəqqətiolma müddətinin uzadılması, müvəqqəti və daimi yaşama və iş icazələrinin verilməsi, vətəndaşlıq məsələləri və xidmətin səlahiyyətlərinə aid olan digər məsələlərlə bağlı, ümumilikdə, xidmətə 6376 müraciət daxil olub. Həmin müraciətlərdən 3605-i əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı olub. Müraciətlərdən 2427-si şəxsən, 1178-i isə Dövlət Miqrasiya Xidmətinin e-mail ünvanına və "Elektron hökumət" portalına daxil olub.

Qeyd edilib ki, ötən il ərzində xidmətə əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı 1839, yenidən rəsmiləşdirilməsi üçün 10, daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı 7, yenidən rəsmiləşdirilməsi üçün 1, Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar isə 489 müraciət daxil olub.

Vurğulanıb ki, bütün parametrlər üzrə əldə edilən davamlı və dayanıqlı inkişaf, eyni zamanda təhlükəsizlik və əmin-amanlıq sayəsində muxtar respublikamızda yaşamaq, işləmək və təhsil almaqla bərabər, ölkəmizin vətəndaşı olmaq istəyənlərin sayı da hər ötən il artmaqdadır. Həyata keçirilən tədbirlərin məntiqi nəticəsi kimi 2021-ci ildə Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı 3 müraciət daxil olub. Həmin müraciətlərdən 2-si icra edilib, 1-i isə hazırda icra mərhələsindədir. Həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində ölkə Prezidentinin imzaladığı Sərəncamın icrası ilə əlaqədar vətəndaşlığa qəbulla bağlı müraciət etmiş şəxslərin andiçmə mərasimi keçirilib.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Beynəlxalq Hava Limanında keçirilən iclası giriş sözü ilə açan direktor Mənşur Gülməmmədli bildirib ki, 2021-ci il hava limanı üçün xüsusilə əlamətdar hadisə ilə yadda qalıb. Belə ki, ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının açılışı olub.

Vurğulanıb ki, Naxçıvan Beynəlxalq Hava Limanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin tərkibindən çıxarılaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinə verilib. Bu da hava limanı üçün yeni prioritetlər və layihələr həyata keçirilməsinə şərait yaradıb. Bu işlərin davamı kimi "İraero" aviaşirkəti ilə əməkdaşlıq edilib. Moskva-Naxçıvan-Gəncə, Gəncə-Naxçıvan-Moskva istiqamətində yeni reyslər açılıb. Vətəndaşların rahat bilet əldə etmələri üçün Naxçıvan və Culfa şəhər avtovağzallarında yeni bilet satışı məntəqələri yaradılıb. Muxtar respublikaya gələn qonaqların rahat və təhlükəsiz mənzil başına çatdırılması üçün "Aeroport Taksi" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlayıb, hava limanında reyslərin çoxluğu və sərnişin dövriyyəsinin artması ilə əlaqədar olaraq hazırda yeni teleskopik trapın tikintisi aparılır.

Qeyd olunub ki, 2021-ci il ərzində yerli hava xətləri ilə 282 000 sərnişin, 5 567 300 kiloqram baqaj, 962 860 kiloqram yük, 40 990 kiloqram poçt daşınmışdır. Beynəlxalq hava xəttilə Naxçıvan-İstanbul istiqamətində 5085 sərnişin, 104 142 kiloqram baqaj, Naxçıvan-Moskva istiqamətində 5 932 sərnişin, 113 637 kiloqram baqaj daşınıb.

Məruzə ətrafında müzakirələr olub.

**Xəbərlər şöbəsi**



***Muxtar respublikada güclü sənaye potensialının inkişafı üçün zəngin xammal bazasının mövcudluğu, müasir texnologiyaların tətbiqi son illərdə bu sahədə keyfiyyət və kəmiyyət baxımından müsbət istiqamətdə dəyişikliklərin əldə edilməsinə geniş imkan yaradıb. Bu müddətdə Dövlət proqramlarının, iri layihələrin uğurla icra edilməsi və qazanılan müsbət nəticələr deyilənləri bir daha təsdiqləyir.***

## Ötən il muxtar respublikanın iqtisadi potensialının artmasında sənaye mühüm rol oynayıb

Muxtar respublika sənayesinin yüksək sürətlə inkişaf etməsi, əsasən, 17 il əvvəl qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın reallaşması məqsədilə buradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə olunması ilə bağlıdır. 2004-2020-ci illərdə muxtar respublika iqtisadiyyatı 12,5 dəfə, ötən ilin 11 ayında isə 1,4 faiz artmışdır. 2020-ci ildə sənayedə əlavə dəyərin illik artım tempi 2,5 faiz, ötən ilin 11 ayında isə 1,2 faiz yüksəlmişdir. Nəticədə, 2020-ci ilin eyni dövrü ilə müqayisədə 2021-ci ilin 11 ayında sənayenin ÜDM-də xüsusi çəkisi 27,5 faizə çatmışdır.

Bir sıra istehsal sahələrində məhsul istehsalının həcminin artması, investisiya fəallığının gücləndirilməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi muxtar respublikanın iqtisadi dayaqlarını xeyli möhkəmləndirmişdir. Ötən il iqtisadiyyatın əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabətqabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində mövcud layihələrin icrası davam etdirilmiş, stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir. 2021-ci ildə muxtar respublikada 120 sənaye müəssisəsi açılmış, mövcud sənaye müəssisələrinin istehsal gücləri genişləndirilmişdir. Bu müəssisələr arasında “Gəmiqaya Plastmas Kapsul və Qapaq” Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni çeşiddə plastmas kapsul və qapaq istehsalı sahəsi, Duzdağda açılan yeni şaxta, “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsalat korpusunda 7 müxtəlif təyinatlı müəssisə və “Naxplast” Məhdud Məsuliyyətli Cəmiyyətinin polietilen məmulatlar istehsalı sahəsi yerli tələbatın ödənilməsi ilə bərabər, ixrac potensialının güclənməsinə, yeni iş yerlərinin açılmasına öz töhfəsini vermişdir. Həmin sənaye obyektlərinin açılışlarında Ali Məclis Sədrinin iştirakı, tapşırıq və tövsiyələrini verməsi muxtar respublika sənayesinin inkişafına ən yüksək səviyyədə diqqət və qayğının göstəricisidir.





Hazırda iqtisadi fəaliyyətin müxtəlif sahələrində 61 layihə reallaşdırılır ki, bunlar da Şərur Sənaye Məhəlləsi, yeni duz istehsalı, həmçinin enerji içkiləri iri sənaye müəssisələridir.

Həyata keçirilən iqtisadi tədbirlərin nəticəsidir ki, muxtar respublikada 384 növdə məhsul istehsal olunur. 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir ki, bu da yerli istehsalın xüsusi çəkisinin artması hesabına mümkün olmuşdur.

Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin fəaliyyətə başlamasına geniş imkanlar yaratmış, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırmışdır. Naxçıvanda həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, rolunun gücləndirilməsinə dövlət qayğısının bariz təzahürü olmaqla mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Belə ki, 2021-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 7 milyon 744 min manat təşkil etmişdir. Bu kreditlərdən 191 min 500 manatı sənaye sahələrinin yaradılmasına sərf olunmuşdur. Maliyyələşdirilmiş layihələr hesabına 550-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Yeni müəssisələrin yaradılması ilə yanaşı, muxtar respublikada istehsal edilən sənaye məhsullarının çeşidi və rəqabətqabiliyyətliliyi də sürətlə artır. Hazırda muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrində zəruri ərzaq məhsulları ilə yanaşı, müxtəlif tikinti materialları, plastik tikinti materialları, avtomobil, mebel və sair istehsal olunur, bir çox sənaye məhsulları üzrə muxtar respublika özünü təmin edir. Görülmüş tədbirlərin nəticəsidir ki, ötən ilin 11 ayı ərzində sənaye sektoru 1,4 faiz artmış, ÜDM-in 27,5 faizi sənayedə istehsal olunmuşdur. Sənaye məhsulunun 92,6 faizi özəl bölmənin payına düşmüşdür.

Həyata keçirilən düşünülmüş siyasət, rəqabətədavamlı, müasir texnologiyalara əsaslanan müəssisələrin yaradılması ixracın genişlənməsinə yeni imkanlar açır. Hazırda bir sıra sənaye müəssisələrinin məhsulları xarici bazarlara çıxarılır, analoji məhsullarla rəqabət aparır. Ötən il Rusiya, İran, İraq, Türkiyə, Yəmən, BƏƏ, Gürcüstan, Estoniya, Latviya, Litva, Polşa, Çin, Əfqanıstan, Türkmənistan, Kanada, Qazaxıstan, Ukrayna kimi ölkələrə vafli məmulatları, mebel dəstləri, mineral sular, tütün məmulatları, tikinti materialları, daş məhsulları, plastik inşaat məhsulları ixrac edilmişdir.

Hazırda muxtar respublikada sənaye istehsalı ilə bağlı həm iri layihələr icra edilir, həm də bu məqsədlə kiçik və orta sahibkarlığın inkişafına diqqət artırılır. Bu isə onu deməyə əsas verir ki, yaxın zamanlarda muxtar respublikada sənayenin inkişafı idxaldan asılılığı azaldacaq və ixrac potensialı daha da artacaq. Muxtar respublikada cari ildə istifadəyə veriləcək Şərur Sənaye Məhəlləsi bu fikrin reallığından xəbər verir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Dövlət Təhlükəsizliyi Xidmətinin Babək Rayon Şöbəsində müasir şərait yaradılıb



*Yanvarın 12-də Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Babək Rayon Şöbəsinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib.*

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Nurlan Pənahov qeyd edib ki, muxtar respublikada dövlət təhlükəsizliyinin qorunması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin maddi-texniki bazası ilbəil gücləndirilir, əməkdaşlar üçün müasir iş şəraiti yaradılır. Xidmətin Babək Rayon Şöbəsinin yeni binasının istifadəyə verilməsi də muxtar respublikada təhlükəsizlik orqanlarına göstərilən qayğının bariz nümunəsidir.

Diqqətə çatdırılıb ki, ölkəmizdə bu sahə üzrə qəbul olunmuş normativ-hüquqi aktların və qanunların icrasını təmin etmək, dövlətin təhlükəsizliyini qorumaq və səmərəli fəaliyyət göstərmək kollektivin qarşısında duran əsas vəzifələrdir. Mövcud qanunvericilik bazası, yaradılan şərait və fəaliyyət üçün istiqamətlərin müəyyənləşdirilməsi bu vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verir.

Nurlan Pənahov yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə kollektiv adından minnətdarlığını bildirib.

Sonra bina ilə tanışlıq olub. Məlumat verilib ki, 2 mərtəbədən ibarət olan binadakı iş otaqları lazımi avadanlıqlar və texniki vasitələrlə təmin olunub. Binanın ikinci mərtəbəsində 2 və 3 otaqlı 4 xidməti yaşayış mənzili istifadəyə verilib, ailələr üçün hərtərəfli məişət şəraiti yaradılıb.

Binanın həyətində də abadlıq işləri aparılıb, avtomobillər üçün dayanacaq, istirahət köşkü və uşaqlar üçün əyləncə yeri yaradılıb, yaşıllıqlar salınıb.

***Xəbərlər şöbəsi***

## 2021-ci ildə muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsal həcmi 5,3 faiz artıb

### *Bu, son 5 ildə əldə olunan ən yüksək göstəricidir*

*Kənd təsərrüfatı iqtisadi və insan resurslarından, beynəlxalq aləmdə tutduğu mövqeyindən asılı olmayaraq, hər bir ölkə üçün ən vacib sahələrdən biri hesab edilir. Müasir dövrdə dünyada gedən bir sıra qlobal proseslər (quraqlıq, pandemiya, bahalaşma və sair) bu sahənin necə strateji əhəmiyyət daşıdığını bir daha göstərməkdədir. Bu baxımdan etibarlı ərzaq təhlükəsiziyinin təmin olunması hər bir ölkə üçün ən ümdə məsələlərdən biridir. 2021-ci il dekabrın 29-da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında Ali Məclisin Sədri kənd təsərrüfatının əhəmiyyətinə diqqət çəkərək demişdir:* ***“Kənd təsərrüfatını inkişaf etdirmədən nə ərzaq təhlükəsizliyindən, nə də iqtisadi inkişafdan danışmaq mümkündür. Çünki aqrar sektor bir tərəfdən sənaye müəssisələrini xammalla təmin edir, digər tərəfdən isə özünüməşğulluğu təşviq edir, yerli istehsalın həcmi artır, daxili bazar qorunur”.***





Ölkəmizdə, eləcə də muxtar respublikamızda etibarlı ərzaq təhlükəsizliyinin təminatı sahəsində görülən işlər, ilk növbədə, kənd təsərrüfatının müxtəlif sahələrini davamlı inkişaf etdirməyə əsaslanır. Son illərdə aqrar sahədə həyata keçirilən tədbirlər bu istiqamətdə müsbət nəticələrin əldə olunması ilə nəticələnib. Xüsusilə əkinəyararlı torpaq sahələrinin səmərəli istifadəsi daim diqqətdə saxlanılır, torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizmi davamlı olaraq təkmilləşdirilir. Bu sahədə görülən işlərin ən önəmlisi əkinəyararlı torpaqların münbitliyinin artırılması, onlardan səmərəli istifadə olunmasıdır. Hətta bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2020-ci il 27 noyabrda “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalamışdır. Ötən dövrdə torpaq ehtiyatlarından düzgün istifadə olunması, meliorativ tədbirlərin aparılması məqsədilə mühüm işlər görülmüş, yeni qapalı suvarma şəbəkələri qurulmuşdur. Bununla yanaşı, məhsul istehsalçılarının güzəştli kreditlərlə təmin edilməsi, texnika və gübrə ilə təchizatın yaxşılaşdırılması, suvarma sistemlərinin yenilənməsi və müasir aqrar infrastrukturun formalaşdırılması kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırmışdır.

Statistik rəqəmlərə nəzər salsaq, görərik ki, muxtar respublikada 2021-ci ilin məhsulu üçün 64 min hektardan artıq sahədə əkin aparılıb. Əkilmiş sahələrin 32 min 721 hektarını taxıl təşkil edib, 103 min tondan artıq məhsul yığılıb.

İstehsal həcmində böyük irəliləyişə nail olmuş məhsullardan biri də qarğıdalıdır. Qarğıdalının tədarükçülər tərəfindən münasib qiymətə qəbul edilməsi torpaq mülkiyyətçilərində bu sahəyə marağı artırmış, nəticədə, 2021-ci ildə 2150 hektar qarğıdalı sahəsindən 21 min tona yaxın məhsul tədarük edilmiş, hər hektarın orta məhsuldarlığı 96 sentner olmuşdur. Xatırladaq ki, 2020-ci ildə 1549 hektar qarğıdalı əkini sahəsindən 14 min 753 ton məhsul yığılmışdı.

Muxtar respublikada diqqət mərkəzində saxlanılan sahələrdən biri də meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsidir. Hamımıza məlumdur ki, bununla bağlı ardarda iki Dövlət proqramı qəbul edilib. Bu proqramlardan birincisinin icrası 2020-ci ildə yekunlaşıb. İkinci proqram isə ötən ilin mart ayında qəbul edilib və hazırda icrası uğurla davam etdirilir. Görülən işlərin nəticəsidir ki, ötən il muxtar respublika üzrə 6203 hektar sahədə tərəvəz, 2479 hektar sahədə bostan əkinləri həyata keçirilmiş, 102 hektar yeni meyvə bağı salınmışdır. Bundan başqa, 3470 hektar sahədə kartof, 52 hektar sahədə tütün əkini aparılmışdır ki, bu da bir il əvvəlki göstəricilərlə müqayisədə müvafiq olaraq 7 və 16 faiz çoxdur.

Kənd təsərrüfatının davamlı inkişafında mühüm amillərdən biri də fermerlərin müasir kənd təsərrüfatı texnika və texnoloji avadanlıqları ilə təminatıdır. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2021-ci ildə 327 müxtəlif adda kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınmış, 346 texnika lizinq və nağd yolla satılmış, məhsul istehsalçıları 7 min tondan artıq mineral gübrə ilə təmin olunmuşdur. Bundan əlavə, heyvandarlığın inkişaf etdirilməsi məqsədilə fermerlərə 13 milyon 494 min manatdan çox, aqrar sahənin müxtəlif istiqamətləri üzrə fəaliyyət göstərən ailə təsərrüfatlarına isə 1 milyon 221 min manatdan çox güzəştli kredit verilmişdir.

Təbii ki, bu kimi tədbirlər kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün əsaslı zəmin yaratmış, ötən il muxtar respublikada 573 milyon 380 min manatdan artıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Bu, 2020-ci illə müqayisədə 5,3 faiz çoxdur və bu artım həcmi son 5 ildə qeydə alınmış ən yüksək faizdir. Qeyd edək ki, kənd təsərrüfatı məhsullarının istehsal həcmi 2020-ci ildə 4,6 faiz, 2019-cu ildə 4,5 faiz, 2018-ci ildə 4,4 faiz, 2017-ci ildə isə 4 faiz artıb.

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Oxucu məktubları

## Minnətdarlıq

### Dövlətimizin daim diqqətindəyik

*Hörmətli redaksiya!*

Bu məktubu sizə ünvanlamağı biz şəhid ailələrinə göstərilən diqqət və qayğıya cavab olaraq özümə borc bildim. Mən İkinci Qarabağ müharibəsinin qəhrəmanı Ramin Bağırovun anasıyam.

Vətən müharibəsində əldə etdiyimiz şanlı tarixi Zəfərimizlə xalqımız sonsuz iftixar hissi keçirir. Əminliklə söyləyə bilərəm ki, şəhid ailələrinin sosial müdafiəsi yüksək səviyyədə təşkil edilir, onların sosial təminat və ehtiyaclarına xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. O da xüsusi vurğulanmalıdır ki, bu kateqoriyaya aid olanların sosial müdafiəsinin gücləndirilməsi davamlı xarakter daşıyır.

Şəhid ailələrinə göstərilən hərtərəfli dövlət qayğısı acımız nə qədər dərin olsa da, ürəyimizə su səpir. Ailəmizə, övladlarıma göstərilən bu qayğının ən bariz nümunəsi isə bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının Məşğulluq Mərkəzindən bir baş yanıbalalı, iribuynuzlu heyvanın verilməsi oldu.

Mən bütün şəhid ailələri adından Ali Məclisin Sədrinə və eləcə də bizi diqqətdə saxlayıb, hərtərəfli qayğı göstərən hər kəsə minnətdarlığımı bildirirəm.

**Sayimə BAĞIROVA**
*Şahbuz rayonunun Badamlı qəsəbə sakini*

### Dövlət qayğısı ən böyük təsəllimizdir

*Hörmətli redaksiya!*



Bu məktubu sizə oğul itkisinin ağrı-acısı, eyni zamanda illərdir, həsrətində olduğumuz günə çatmağımızdan doğan fərəh hissi ilə yazıram. Heç bir müharibə itkisiz olmur. Oğlum Fuad İsmayılov Vətənin müdafiəçisi kimi fərəhli bir ad daşıyırdı. İkinci Qarabağ müharibəsi başlayan gündən döyüşlərdə iştirak edib orada şəhadət şərbətini içdi. Oğlumun cənazəsi gələn günə kimi, ondan sonrakı günlərdə də məni bir an belə, tək qoymayan qohum-əqrəbamın arasında dövlət nümayəndələrini görmək qəlbimə az da olsa, təskinlik verdi. Bütün dövlət qurumları tez-tez bizim ailə ilə maraqlanır. Hər hansı bir çətinliklə qarşılaşmağımıza imkan vermirlər. Övladımın iki oğlu Vətənə əmanət qalıb. Onlar da gələcəyin əsgəri, qəhrəmanıdırlar.

Onu da xüsusilə vurğulamaq istəyirəm ki, ötən ay rayon Mərkəzi Xəstəxanasında ölkə başçısının 60 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim heyəti tərəfindən keçirilən humanitar aksiyada iki nəvəm müayinə edildi və dini qaydalarımıza uyğun şəkildə əməliyyat olundu. Hər ikisinin vəziyyəti yaxşıdır.

Həmişə bütün sakinlərə ata qayğısı ilə yanaşan muxtar respublika rəhbərimizin əlini öz çiynimizdə hiss etməyimiz övlad acımızı ovutmaq üçün bizlərə böyük təsəllidir. Mən bütün şəhid ailələri adından dövlətimizə minnətdarlığımı bildirirəm.

**Murad İSMAYILOV**
*Kəngərli rayonu, Qıvraq qəsəbəsi*

### Belə bir təhsil ocağında oxumaqdan qürur duyuram

*Salam, hörmətli redaksiya!*



Bu məktubu yazmaqda məqsədim qəzetiniz vasitəsilə Naxçıvan Dövlət Universitetində şahidi olduğum diqqət və qayğıdan aldığım təəssüratı hamı ilə bölüşməkdir. Mən universitetin Tibb fakültəsində Stomatologiya ixtisası üzrə təhsil alıram. Ali təhsil ocağının təhsil şəraiti isə çox gözəldir. Xəstəxanalarda təcrübə keçirik, burada müasir tibbi avadanlıqlardan istifadəni öyrənirik. Bütün bunlar bir daha təsdiq edir ki, Naxçıvan Dövlət Universiteti elmin, tədrisin və mədəniyyətin inteqrasiyasını özündə birləşdirən mötəbər ali məktəbdir.

Naxçıvanda gənclərin, o cümlədən xarici tələbələrin təhsil alması ilə yanaşı, onların yaşaması və işləməsi üçün də hərtərəfli şərait yaradılıb. Mən də işlə təmin olunmuşam. Dərsdən sonra işləyirəm. Bu da imkan verir ki, maddi tələbatımı ödəyim. Bununla yanaşı, onu da qeyd etmək istərdim ki, muxtar respublikanın ali təhsil müəssisələri böyük qayğı ilə əhatə olunub. Dərslərin təşkili, imtahanların keçirilməsi üçün əlverişli şərait yaradılıb. Eləcə də pandemiya dövründə bizlərə ərzaq paylarının ayrılması, Ramazan bayramı ilə əlaqədar iftar paylarının verilməsi, maddi yardım almaq üçün elektron kartlar təqdim edilməsi göstərilən diqqətin daha bir ifadəsidir. Bizə göstərilən bu qayğıya görə muxtar respublika rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

**Məhmət MEMİTANLI**
*türk tələbə*

### Sənətə və sənətkara dəyər böyük stimuldur

*"Şərq qapısı" qəzetinin redaksiyasına!*



Mən 1993-cü ildən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor işləyirəm. Artıq 30 ilə yaxın bir müddətdir ki, taleyimi bu teatra bağlamışam. 1883-cü ildə yaranan Naxçıvan teatrı 3 əsrin şahididir. Müxtəlif ictimai-siyasi quruluşlarda fəaliyyət göstərib. Mənə də müstəqillik illərində bu teatrda işləmək nəsib olub. Özümü çox xoşbəxt sayıram ki, məhz bu dövrdə teatrda işləyirəm. Çünki bu qədim ənənəyə malik sənət ocağı həmişə dövlətin qayğısı ilə əhatə olunub. Burada çalışan aktyorlara və digər yaradıcı insanlara çox gözəl şərait yaradılıb. Ölkə başçısı cənab İlham Əliyevin Sərəncamı ilə teatrımızın 125 illiyi 2008-ci ildə geniş şəkildə qeyd edilib. O cümlədən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə 2012-ci ildə teatrımız əsaslı şəkildə tamamilə yenidən qurulub. Ən müasir teatr və səhnə avadanlıqları ilə təchiz edilib. Bu isə, təbii ki, yaradıcılığa çox mühüm təsir edən amillərdir. Bundan başqa, mənim kimi öz taleyini səhnəyə bağlayan rejissorlar, aktyorlar, rəssamlar və teatrın digər sahələrində çalışan insanlar müxtəlif fəxri adlar, medallarla təltif olunublar. Mən də ötən il ölkə başçısının Sərəncamı ilə "Tərəqqi" medalına, bundan əvvəl isə müxtəlif illərdə iki dəfə Prezident mükafatına layiq görülmüşəm. Bu mənim teatrda çəkdiyim zəhmətə və əməyə dövlət tərəfindən verilən çox böyük qiymətdir. Bunun üçün ölkə başçısına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm. Bizə göstərilən bu qayğı təkcə teatra və incəsənət adamlarına deyil, muxtar respublikanın çoxsaylı mədəniyyət adamlarına qarşı çox böyük diqqətdir. Bu yüksək dövlət mükafatları biz sənət adamlarının üzərinə böyük məsuliyyət qoyur və muxtar respublika mədəniyyətinin inkişafı naminə daha da inamla fəaliyyət göstərməyə stimul yaradır.

**Zakir FƏTƏLİYEV**

### Dərvişlər müasir yaşayış məntəqəsinə çevrilib
#### *Bunun üçün dövlətimizə minnətdarıq*

*Salam, hörmətli redaksiya!*

Mən 2007-ci ildən Şərur rayonunun Dərvişlər kənd tam orta məktəbində müəllim işləyirəm. İndiyəqədərki məktəbimizin vəziyyəti haqqında geniş danışmaq istəmirəm. Ucqar əyalət məktəb binalarından seçilməyən köhnə bina tədrisin müasir tələblər səviyyəsində qurulmasına imkan vermirdi. Artıq işıqlı sinif otaqları, müxtəlif laboratoriyalar, idman qurğuları, zəngin kitabxana qarşımıza qoyulan vəzifələrin yerinə yetirilməsinə şərait yaradıb. Öncə onu qeyd edim ki, 44 şagirdin təhsil aldığı yeni məktəb binası ikimərtəbəli olmaqla, 198 şagird yerlikdir. Uzun illərin perspektivinə hesablanmış məktəb binası dövlətimizin müəllim və şagirdlərə, ümumilikdə, kənd camaatına böyük qayğısının ifadəsidir.



Eyni sözləri digər obyektlər haqqında da demək olar. Yaşayış məntəqəsinin bütün təşkilatlarının fəaliyyət göstərməyə başladığı kənd mərkəzi, dərvişlilərin ixtiyarına verilmiş xidmət mərkəzi, bir sıra zəruri tibbi ləvazimatlarla təchiz olunmuş feldşer-mama məntəqəsi ilk gündən kənd adamlarına nümunəvi xidmət göstərir. Yollarımız şəhər yollarından seçilmir. Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin Dayaq Məntəqəsi uzun illər muxtar respublika iqtisadiyyatına töhfələr verib. Köhnəlmiş binanın yenidən qurularaq məntəqədə çalışanların istifadəsinə verilməsi onların böyük sevincinə səbəb olub.

Kiçik bir kənddə belə böyük quruculuq tədbirlərinin aparılması hər bir Dərvişlər sakininə hərtərəfli dövlət qayğısı olmaqla yanaşı, həm də muxtar respublikanın iqtisadi gücünün ifadəsidir.

Bütün bunlara görə kənd sakinləri adından dövlətimizə minnətdarlığımı bildirirəm.

**Şahidə İSMAYILOVA**
*Dərvişlər kənd tam orta məktəbinin müəllimi*

### Dini dəyərlərimizə hörmətlə yanaşılır



*Hörmətli redaksiya!*

Bu məktubu sizə ünvanlamaqda məqsədim Babək rayonunun Cəhri qəsəbəsində yeni məscid kompleksinin istifadəyə verilməsi ilə bağlı sakinlərin minnətdarlığını çatdırmaqdır.

Hər birimiz şahidik ki, muxtar respublikamızda mənəvi dəyərlərimizin qorunub yaşadılması istiqamətində həyata keçirilən tədbirlər sırasında dini abidələrin bərpası xüsusi yer tutur. Qədim ziyarətgahlar və məscidlər bərpa olunaraq dindarların istifadəsinə verilir. Naxçıvanda məscidlər təkcə ibadət yerləri deyil, həm də mənəvi dəyərlərimizin yaşadıldığı məkanlardır. Son illər qədim diyarda yenidən inşa olunan məscidlərdən biri də yaşadığım Cəhri qəsəbəsində yerləşir. Ötən ilin son günlərində Ali Məclis Sədrinin iştirakı ilə biz dindarların istifadəsinə verilən məscid müasir layihə əsasında inşa olunub. Bir zamanlar uçuq-sökük, dağılmış, istifadəsiz tikili görkəmində olan məscid indi gözəlliyi ilə Cəhrinin simasını daha da dəyişib.

Qəsəbədə dövlət vəsaiti hesabına tikilən yeni məscid kompleksi dinimizə, milli-mənəvi dəyərlərimizə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Ümumiyyətlə, muxtar respublikamızda həyata keçirilən bu xeyirxah missiya, məscidlərin tikintisinə, onların bərpasına, müqəddəs ziyarətgahlarımızın qorunmasına həssaslıqla yanaşılması bu sahəyə göstərilən ən yüksək qayğıdır. Biz də dövlətimizin yaratdığı əlverişli şəraitdən səmərəli istifadə edərək Allahın yer üzündəki evləri sayılan məscidlərimizin saflığını, paklığını, müqəddəsliyini qorumağa çalışırıq. Bütün qəsəbə sakinləri adından dövlətimizə minnətdarlıq edirəm.

**Müslüm AXUNDLU**
*Cəhri qəsəbə sakini, dindar*

## Bizə yazırlar

### Füsunkar diyar qurub-yaratmaq eşqi ilə gözəlləşdirilib



*Salam, hörmətli redaksiya!*

Məni bu məktubu sizə ünvanlamağa vadar edən Naxçıvanda qonaq olduğum qısa müddət ərzində burada gördüyüm gözəlliklərə, insanların diqqət və qayğısına görə Naxçıvan əhalisinə və bu cür təmiz, gözəl şəhəri qurub-yaradanlara minnətdarlığımı bildirmək istəyimdir.

Əvvəlcə onu qeyd edim ki, mən dünyanın müxtəlif şəhərlərində olmuşam. Naxçıvana ilk səfərim də maraqlı keçdi. Düzünü desəm, yaxınlarıma xəbər vermədən gəldiyim bu şəhərdə nə ilə qarşılaşacağımı bilmədiyim üçün əvvəlcə çox həyəcanlı idim. Şəhərə gəldiyim andan etibarən ilk yüksək fikri qonaqpərvərliyi və ədəbli davranışı ilə taksi sürücüsü yaratdı məndə. Daha sonra qonağı olduğum rəfiqələrim məni şəhərlə tanış etdilər. Şəhərin küçələrindəki səliqə-sahman, təmizlik sanki bir ev yiyəsi tərəfindən hər an qorunmaqdadır. Bir neçə gün ərzində ziyarət etdiyim tarixi abidələr, muzeylər, aldığım məlumatlar Naxçıvanı daha da yaxından tanımağıma səbəb oldu. Şəhərdəki tarixi və mədəni abidələrlə yaxından tanışlıq zamanı həmin abidələrin Naxçıvan, ümumilikdə, Azərbaycan üçün nə qədər önəmli yerlər olduğunu başa düşdüm.

Naxçıvan şəhərindəki yaşıllıqlar, parklar onun gözəlliyinə gözəllik qatır. Bu qədim diyardan müqəddəs Əshabi-Kəhfi ziyarət etmədən qayıtmaq olmazdı. Yaxınlarım bu ziyarətə də məni böyük həvəslə apardılar. Dünyanın bir sıra ölkələrində yerləşən bu adda məkanlarda olsam da, müqəddəs kitabımız "Qurani-Kərim"də haqqında bəhs olunan Əshabi-Kəhflə həmin məkanların fərqli cəhətlərini buradakı ziyarətgahda oxşarlıqlar əvəz etdi. Özbəkistanda və dünyanın bir sıra ölkələrində yaşayan yaxınlarıma mütləq bu ziyarətgahda olmalarını tövsiyə edirəm.

Onu da deyim ki, Naxçıvanda yaradılmış qayda-qanun da nəzərimdən yayınmadı. Bir daha əmin oldum ki, əgər bir diyarda inkişaf gedirsə, o, ilk növbədə, əmin-amanlıq sayəsində mümkün olur. Naxçıvanda hara üz tutursan, səni mədəni şəkildə qarşılayıb, qonaqpərvərliklə yola salırlar. İnanıram ki, bu yerlərə bir dəfə yolu düşən insanlar daha çox gəlməyə can atacaqlar. Bunu şərtləndirən başlıca amil isə yüksək intizam və qayda-qanun ilə idarə olunaraq günügündən müasir quruculuğa əsaslanan şəhərin gözəlləşməsinə yönəldilmiş dövlətçilik ənənələri və yüksək insani keyfiyyətlərə malik olan sakinlərdir.

**Xalidə ABDULLAYEVA**
*Özbəkistan Respublikasının vətəndaşı*

## “Turizm “Şərq qapısı” qəzetinin səhifələrində” və “Bura Naxçıvandır” kitablarının təqdimatı keçirilib



Naxçıvan Dövlət Universitetində iqtisad üzrə fəlsəfə doktoru, dosent Əli Cabbarovun “Turizm “Şərq qapısı” qəzetinin səhifələrində” və “Bura Naxçıvandır” adlı kitablarının təqdimatı keçirilib. Təqdimatı giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev yeni nəşrləri Naxçıvan turizm və jurnalistika məktəbinə mühüm töhfə olaraq dəyərləndirib. Qeyd edilib ki, nəşr həm də ötən il 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunan “Şərq qapısı” qəzetinin turizm sahəsindəki yığcam hesabatı da sayıla bilər. Rektor müəllifin ali təhsil ocağında müəllim kimi fəaliyyətini də yüksək qiymətləndirərək kitabları Turizm və Jurnalistika ixtisaslarında təhsil alan tələbələr üçün qiymətli mənbə olduğunu qeyd edib. Rektor “Turizm “Şərq qapısı” qəzetinin səhifələrində” kitabının bu əhəmiyyətini nəzərə alınaraq universitet Elmi Şurasının 28 oktyabr 2021-ci il tarixli qərarı ilə dərs vəsaiti kimi təsdiq olunduğunu diqqətə çatdırıb.

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev bildirib ki, turizmin inkişafı geniş miqyasda onun təbliğindən asılıdır. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasında turizmin təbliğatında “Şərq qapısı” qəzetinin böyük rolu olub. Tarixi abidələrin turizmdə rolundan bəhs edən tarixçi alim vurğulayıb ki, Əli Cabbarov bu kitablarında muxtar respublikanın turizm potensialı haqqında geniş məlumat verib.

Bələdiyyə və turizm kafedrasının müdiri Flora Kərimova bildirib ki, “Turizm “Şərq qapısı” qəzetinin səhifələrində” adlı kitabda qəzetin 1940-cı illərdən başlayaraq bu gün üçün əhəmiyyət daşıyan turizm, tarix, mədəniyyət mövzusundakı yazıları və mühüm siyasi əhəmiyyətli hadisələr haqqındakı rəsmi xəbərlər barədə məlumatlar öz əksini tapıb.

“Şərq qapısı” qəzetinin İqtisadiyyat və təhlil şöbəsinin müdiri, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Səbuhi Həsənov müəllifin gərgin və məhsuldar jurnalistlik fəaliyyətinin bəhrəsi olan kitabların turizm tədrisinə xüsusi töhfə verdiyini ifadə edib, materialların, janr, mövzu etibarilə qruplaşdırılmasını diqqətə çatdırıb. Qeyd olunub ki, kitab Turizm və Jurnalistika ixtisasında təhsil alan tələbələr, həmçinin oxucular üçün faydalı mənbə olacaq.

Tədbirdə çıxış edənlər son illər ölkəmizdə turizmin inkişafı naminə görülən işlərdən danışıb və turizm sahəsinə yeni töhfələr verəcək bu nəşrləri elmi-kütləvilik baxımından yüksək qiymətləndiriblər.

Sonda Əli Cabbarov çıxış edərək muxtar respublikada digər sahələrlə yanaşı, turizmin inkişafında aparılan uğurlu siyasətin bəhrəsi kimi səciyyələndirib, bu sahəyə göstərilən böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib, tədbirin təşkilatçılarına təşəkkür edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Sabahın tədqiqatçısının məqaləsi “Gənc alim” jurnalında işıq üzü görüb



AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birlikdə reallaşdırdığı “Sabahın tədqiqatçıları” layihəsinin əsas məqsədi şagirdlərdə elmə marağın artırılması və onlarda ilkin tədqiqat aparmaq bacarığının formalaşdırılmasından ibarətdir. Bu qayə uğrunda səylə çalışan layihə iştirakçıları müxtəlifməzmunlu beynəlxalq müsabiqələrdə ölkəmizi uğurla təmsil edir, medallara, diplom və sertifikatlara layiq görülür, elmi məqalələr dərc etdirirlər.




Fəallığı ilə seçilən məktəblilərdən biri də Naxçıvan Qızlar Liseyinin X sinif şagirdi İnci Fərəcovadır. AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Seysmoloji xidmət şöbəsinin müdiri İlkin Vəlibəyovun rəhbərliyi ilə tədqiqat aparan məktəblinin “Naxçıvan Muxtar Respublikası ərazisində seysmik təhlükə səviyyəsinin və məktəbimdəki şagirdlərin seysmik dayanıqlılığının qiymətləndirilməsi” adlı məqaləsi Rusiyada nəşr edilən “Gənc alim” beynəlxalq elmi jurnalında ingilis dilində dərc olunub. Qeyd edək ki, jurnaleLIBRARY.RU elmi elektron kitabxanasına daxil olan nəşrlər sırasındadır.

Mövzu ilə əlaqədar Naxçıvan Qızlar Liseyində elektron lövhədə dərs təşkil olunub. Dərs zamanı şagirdlərə Naxçıvan Muxtar Respublikasının seysmikliyi, seysmik təhlükəlilik səviyyəsi ilə bağlı geniş məlumat verilib, zəlzələlər zamanı davranış qaydaları haqqında praktik vərdişlərə yiyələnməklə gələcəkdə baş verə biləcək təhlükələrdən qorunmağın yolları göstərilib.

Dərsin sonunda jurnalın redaksiya heyəti tərəfindən göndərilən sertifikat sabahın tədqiqatçısı İnci Fərəcovaya təqdim olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Baş məşqçimiz Türkiyə klubunda olub

***Naxçıvan Futbol Federasiyasının sədr müavini, “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun baş məşqçisi Sakit Rzayev Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının dəstəyi ilə Türkiyə Super Liqasında çıxış edən “Çaykur Rizəspor” Futbol Klubunun təlim-məşq bazasında olub.***



Üçgünlük səfər zamanı baş məşqçi Türkiyə klubunun yeni fəaliyyətə başlayan futbol akademiyası ilə yaxından tanış olub, akademiyanın direktoru Fədayi Aksoy və 14 yaşa qədər aşağı yaş komandalarının koordinatoru Əmrə Hamzaoğlu ilə görüşlər keçirilib. Görüşlərdə akademiyanın inkişaf strategiyasından, hər yaş qrupu üzrə məşq və inkişaf planlarından, məşqçilərin nəzəri və praktik kurslarından, yaş qrupları üzrə məşq proqramlarından danışılıb. Eləcə də türk klubu ilə Naxçıvan Futbol Federasiyası arasında əməkdaşlıq barədə də müzakirələr aparılıb.

Qeyd edək ki, Sakit Rzayev səfər çərçivəsində “Çaykur Rizəspor” Futbol Klubunun əsas komandasının məşqlərini izləyib, digər yaş qruplarının məşqlərində iştirak edib.

**✍ Ceyhun MƏMMƏDOV**

*Muxtar respublika ərazisində mövcud ekoloji vəziyyətin qorunması, ətraf mühitin mühafizəsi, təbii resurslardan iqtisadi inkişaf məqsədilə səmərəli istifadə olunması və əlverişli ekoloji mühitin yaradılması üçün dövlət ekoloji siyasəti dekabr ayında da uğurla davam etdirilmişdir.*

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir



Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə təsir hallarının qiymətləndirilməsi məqsədilə 23 yoxlama-reyd keçirilmiş, 2 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublika təbiətinin qorunması üçün inzibati tədbirlərdən daha çox ekoloji-hüquqi maarifləndirmə tədbirlərinə üstünlük verilir. Bu məqsədlə Ordubad rayonunun Parağa və ətraf kəndlərin nümayəndələrinin iştirakı ilə ekoloji-hüquqi maarifləndirici tədbirlər keçirilmişdir. Həmin tədbirlərdə ətraf mühitin mühafizəsi, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları haqqında müzakirələr aparılmışdır.

Ay ərzində Naxçıvan şəhəri, Şərur, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 27-dən çox yaşayış məntəqəsində ekoloji monitorinqlər aparılmış, su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və mərkəzi avtomobil yollarının kənarlarındakı yaşıllıq zolaqlarındakı mövcud vəziyyət öyrənilmişdir. Monitorinqlər zamanı bir sıra çatışmazlıqlar da qeydə alınmışdır.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında hesabat ayı ərzində Araz və Arpaçayın muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən “Şir arxı”ndan hər birindən 4 olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülmüş və 138 analiz aparılmışdır. Analizlərin nəticəsinə əsasən sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Hesabat ayında yaşıllaşdırma tədbirləri ting və toxumla əkin işləri çərçivəsində davam etdirilmişdir. Ötən ay, ümumilikdə, 1 hektar sahədə yeni meyvə bağı, 8 hektar sahədə tinglə bərpa, 31,3 hektar sahədə toxumla əkin işləri həyata keçirilmiş, 4425 müxtəlif meyvə, meşə tingləri, 782 kiloqram toxum əkilmişdir. Növbəti illərdə tingə olan tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə Qoşadizə və Quşçuluq tinglik sahələrində və Naxçıvan Sement Zavodunun ətrafında torpaq hazırlığı işləri aparılmış, torpaq qatının münbitliyinin yaxşılaşdırılması məqsədilə 150 kiloqram şumaltı mineral, 14 ton üzvi gübrə verilmiş, texnika vasitəsilə şırımlar açılmış, alma, iydə, göyrüş, palıd, innab, tut, ərik, gilənar, sərv, eldar şamı toxumlarından istifadə olunmaqla, 0,5 hektar sahədə yeni toxmacarlıq sahəsi yaradılmış, suvarma aparılmışdır. Şıxmahmud, Badaşqan, Məzrə, Kültəpə, Yeniyol və Yarımca Dövlət meşələrində suvarma aparılmış, Yeniyol və Yarımca Dövlət meşələrində 1800 metr uzunluğunda yeni suvarma arxı çəkilmişdir.

Xüsusi mühafizə olunan təbiət ərazilərində məskunlaşmış vəhşi heyvanların qış aylarında dəşduza və qaba yemə olan tələbatını ödəmək məqsədilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının Kotam kəndinə bufer zonada yerləşən ərazisinə 2 ton daşduz, 100 kipə yaxın qaba yem yerləşdirilmiş və 300 kiloqramdan artıq daşduz əraziyə dağıdılmışdır.

“Beynəlxalq Könüllülər Günü” ilə əlaqədar 20 könüllünün iştirakı ilə Naxçıvançay vadisində təmizlik aksiyası keçirilmişdir. Aksiyada əvvəlcə gənclərə ətraf mühitin mühafizəsi haqqında geniş məlumat verilmiş, sonra təmizlik işləri görülmüşdür. Bu cür ekoloji aksiyaların mütəmadi keçirilməsində əsas məqsəd ətraf mühitin mühafizəsinin vacibliyini insanlara, xüsusilə gənc nəslin diqqətinə çatdıraraq onların ekoloji problemlərə qarşı həssaslıqlarını artırmaqdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Fövqəladə hallara hazırlıq günün tələbidir

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin struktur qurumları tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağmədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulan vəzifələrin icrası ötən ilin dekabr ayında da davam etdirilib.*



Ay ərzində nazirliyin struktur qurumlarında komandir hazırlığı üzrə məşğələlərin, qərargah məşqinin keçirilməsi təmin olunub. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Avstriya Respublikası Federal Daxili İşlər Nazirliyinin qarşılıqlı əməkdaşlığı çərçivəsində 11-19 dekabr tarixlərində Qusar rayonunda dağ alpinizmi və qar uçqunlarında axtarış-xilasetmə üzrə təliminə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin müvafiq şəxsi heyəti də cəlb edilib. Təlim nəzəri və praktik hissədən ibarət olmaqla keçirilib. Təlimin sonunda xilasedicilərə Avstriya Federal Daxili İşlər Nazirliyinin müvafiq sertifikatları təqdim olunub.

Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında mülki müdafiə, fövqəladə hallardan qorunma, yanğın təhlükəsizliyinin təmin olunması və dəm qazından zəhərlənmə hallarının qarşısının alınması məqsədilə Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunda göstərici məşğələ keçirilib. Nazirliyin yanğın təhlükəsizliyi orqanları tərəfindən muxtar respublika ərazisində yanğın təhlükəsizliyinin etibarlı təmin olunması və yanğına qarşı vəziyyətin yaxşılaşdırılması məqsədilə 235 obyektdə yoxlamalar aparılıb. 784 qazanxanada texniki və yanğın təhlükəsizliyi vəziyyətinə baxılıb, mövsümi qazanxana işçiləri təlimatlandırılıb, sertifikatı olan şəxslərin işə cəlb olunması üçün obyekt rəhbərləri ilə maarifləndirici söhbətlər aparılıb.

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramının qeyd olunduğu günlərdə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə mühüm əhəmiyyətli və təhlükə potensiallı obyektlərdə operativ yanğın-texniki müayinələr keçirilib və işçilər maarifləndirilib.

Hesabat dövründə 17 təhlükə potensiallı obyekt yoxlanılıb. Standartların tələblərinə uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının, həmçinin digər texniki avadanlıqların istismarına yol verilməməsi məqsədilə aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə ticarət obyektlərində təkrar yoxlamalar aparılıb və sahibkarlar məlumatlandırılıb. “Qış mövsümündə qaz və elektrik qızdırıcı cihazlarından istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına riayət olunması və dəm qazından zəhərlənmə hallarının qarşısının alınması üçün görüləcək qabaqlayıcı tədbirlər” mövzusunda maarifləndirici tədbirlər keçirilib, reydlər aparılıb.

Aidiyyəti qurumların nümayəndələri ilə birgə 5 min 893 şəxsin yaşayış evinə baxılıb, yanğın cəhətdən təhlükəli olan 39 elektrik, 193 şlanqla çəkilən qaz xətti dəyişdirilib, qazla işləyən 52 suqızdırıcının, standartlara uyğun olmayan 20 qaz cihazının, 316 tezqatlanan tüstü borusunun istismarı dayandırılıb, 60 təbii qaz sızması aradan qaldırılıb. Ay ərzində 375 nəfər qazanxana maşinisti ixtisası üzrə kurslara cəlb edilib, 353 nəfər kursu başa çatdırıb. Hazırda Naxçıvan Şəhər Peşə Liseyində 22 nəfər qazanxana maşinisti ixtisası üzrə kurslarını davam etdirir.

Ay ərzində ***“112”*** qaynar telefon xəttinin fasiləsiz fəaliyyəti təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Qulamov Fəhrad Əkbər oğlunun adına olan avtomobilin dövlət nömrə nişanı (75 BD 997) itdiyindən etibarsız sayılır.

***

Ağayev Nəsimi Xanlar oğlunun adına olan AD-0040376 nömrəli hərbçinin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Əmənova Nəcibə Şahhüseyn qızının adına Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən verilmiş aşbaz köməkçisi sertifikatı itdiyindən etibarsız sayılır.

***

Səfərova Sura Məmməd qızının adına olan AD–0010446 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 36